*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 oktyabr 2016-cı il № 80 (2095) Qiyməti 25 qəpik

## Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü təntənəli surətdə qeyd olunacaq

*Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü haqqında sərəncam imzalayıb.*



Sərəncamda deyilir ki, Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 25 il keçir. Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himnini və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür.

Qeyd edilir ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri - dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir. Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır.

Sərəncamda bildirilir ki, ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir.

Diqqətə çatdırılır ki, 1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atarkən Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə üz-üzə qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olunması, hərbi əməliyyatların dayandırılması və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratdı.

Sərəncamda vurğulanır ki, 1995-ci ildə qəbul olunan Azərbaycan Konstitusiyası milli dövlət quruculuğunun bünövrəsini təşkil etməklə müasir dövlətin bütün qurum və təsisatlarının formalaşdırılmasında, hakimiyyət bölgüsü prinsiplərinin tam təşəkkül tapmasında, parlamentarizm ənənələrinin zənginləşdirilməsində mühüm rol oynamışdır. 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixli referendumlar Konstitusiyanın müəyyən maddələrinə əlavələri ilə dövlət quruculuğu sisteminin təkmilləşməsinə töhfələr vermişdir.

Sərəncamda bildirilir ki, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının yüksək qiymətləndirdiyi iqtisadi duruma biz hələ də öz həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır fəsadları şəraitində nail olmuşuq. Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq həmin münaqişənin sülh yolu ilə həllinə yönəlmişdir. Bütün dövlətlər və beynəlxalq qurumlar tərəfindən qəbul olunan müvafiq qərarlara baxmayaraq, hələ ki Ermənistanın qeyri-konstruktiv mövqeyi sülhə nail olmağa imkan vermir.

Qeyd edilir ki, ölkəmizdə ordu quruculuğunun əsasını təşkil edən prinsip və normalar Azərbaycanın həm müdafiə potensialını, həm də dost və tərəfdaş dövlətlərlə əlaqələrini gücləndirmişdir. Müdafiə sənayesinin inkişafı Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsinə zəmin yaratmış və ordunun döyüş qabiliyyətini artırmışdır. Ermənistanın təxribatçı fəaliyyəti səbəbindən 2016-cı ilin aprelində cəbhədə cərəyan edən hadisələrin nəticələri Qafqazda ən güclü orduya malik olduğumuzu bir daha təsdiq etdi.

Şəhərlərimizin və regionlarımızın infrastrukturunun yeniləşməsi geniş vüsət alır. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilərək tarixi və müasir memarlığın harmonik inkişafının parlaq nümunəsi kimi qiymətləndirilir. Yaradılan müvafiq infrastruktur, istifadəyə verilən yeni otellər və bölgələrdə həyata keçirilən möhtəşəm abadlıq-quruculuq işləri turizmin uğurlu inkişafı üçün geniş perspektivlər açır.

Müstəqillik illərində gənclərlə bağlı siyasət uğurla gerçəkləşdirilir, onların ölkənin siyasi, iqtisadi və sosial-mədəni həyatında iştirakı gündən-günə genişlənir. Ölkəmizin idman sahəsindəki böyük nailiyyətləri gənc nəslin sağlam həyat tərzinə göstərdiyi diqqətin ifadəsidir. Gənclərimizin müxtəlif çempionatlarda və olimpiya oyunlarında qazandığı medallar, Rio-de-Janeyroda nümayiş etdirdiyi yüksək göstəricilər və Azərbaycanda keçirilən İlk Avropa Oyunlarındakı müvəffəqiyyətləri idman tariximizə həkk olunmuşdur.

Qeyd edilir ki, nüfuzu beynəlxalq miqyasda ilbəil möhkəmlənən Azərbaycan dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur. Respublikamızda keçirilən mötəbər beynəlxalq sammit, forum, sərgi, müsabiqə və yarışlar beynəlxalq aləmdə qazandığımız böyük etimadın təzahürüdür.

Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, yaradıcı potensialına, vətənpərvərliyinə və qurub-yaratmaq əzminə arxalanaraq, 25 il ərzində suveren dövlət çərçivəsində misilsiz inkişaf yolu keçmişdir. Müstəqil dövlət quruculuğu sahəsində Azərbaycan Respublikasının əldə etdiyi bu nailiyyətlərin təbliğini, gənc nəsildə vətənpərvərlik ruhunun aşılanmasını və dünya azərbaycanlılarının öz tarixi vətənlərinə bağlılığının gücləndirilməsini təmin etmək məqsədilə imzalanan sərəncama əsasən, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü ölkəmizdə dövlət səviyyəsində təntənəli surətdə qeyd olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi qulluqçular döyüşə hər an hazır olduqlarını bildiriblər

## Müdafiə naziri müdafiənin ön xəttində yerləşən bölmələrdə olub





*Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi bir neçə gündür ki, cəbhə bölgəsindədir.*

Müxtəlif qoşun bölmələrinin şəxsi heyəti ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib ki, işğalçı Ermənistanın öz çirkin taktikasını davam etdirərək danışıqlar prosesini uzatması nəticəsində münaqişənin həlli istiqamətində heç bir irəliləyiş əldə olunmur. Əslində, bu, təcavüzkar erməni rəhbərliyinin hiyləgərliyinin, münaqişədə vaxt uzatmasının göstəricisidir. Azərbaycan cəmiyyətində isə torpaqlarımızın işğaldan azad edilməsi üçün konkret addımların atılması gözlənilir. Belə şəraitdə ölkəmiz haqlı olaraq öz ordusunu müasir silah-sursat və hərbi texnika ilə təmin etməkdə israrlıdır. Dövlətimizin rəhbərliyi bütün mötəbər tədbirlərdə bəyan edir ki, əgər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi sülh yolu ilə həllini tapa bilməsə, Azərbaycan münaqişənin həllində başqa vasitəyə əl atacaqdır. Aprel döyüşlərində qazanılan qələbə də hərbi qulluqçularımızın yüksək döyüş əzmini sübuta yetirdi. Ermənistan dövlətinin rəhbərliyi dərk etməlidir ki, qarşısında qüdrətli Azərbaycan dövləti və onun hərtərəfli hazırlığa malik olan ordusu dayanır.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən yayımlanan məlumatda deyildiyi kimi, nazirliyin rəhbərliyi Qazax rayonu istiqamətindəki Odundağı zirvəsi və Murov dağı bölgəsindəki bölmələrdə olub. Müdafiə naziri general-polkovnik Zakir Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Müdafiənin ön xəttində döyüş növbətçiliyini həyata keçirən hərbi qulluqçularla görüşən Müdafiə naziri onların hər birinin qayğı və problemləri ilə maraqlanıb, arzu və istəklərini dinləyib. Dövlətimizin Silahlı Qüvvələrin inkişafına, həmçinin hərbi qulluqçuların sosial qayğılarının həllinə göstərdiyi diqqət və qayğıdan ruhlandıqlarını bildirən əsgərlər bundan sonra da Vətənə, dövlətə və xalqa sədaqətlə xidmət edəcəklərini, Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda hər an döyüşə hazır olduqlarını qeyd ediblər.



Ön xətdə şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış olan Müdafiə naziri qeyd edib ki, hazırda qarşıda dayanan əsas vəzifə torpaqlarımızın tezliklə işğaldan azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Bu vəzifənin yerinə yetirilməsi məqsədilə ölkənin hərbi potensialının daha da gücləndiyini qeyd edən nazir əmin olduğunu bildirib ki, dövlətin və xalqın hərtərəfli qayğısını daim hiss edən Azərbaycan Ordusunun şəxsi heyəti qarşısında dayanan mühüm vəzifəni uğurla yerinə yetirəcəkdir.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən hərbi hissələrdəki tikinti işlərinin gedişatını yoxlayıb



*Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, yeni hərbi hissələrdə tikinti-inşaat işləri davam etdirilir.*

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada tikilməkdə olan bir neçə hərbi hissədə aparılan inşaat işlərinin gedişatını yoxlayıb.

Müdafiə nazirinə məruzə edilib ki, hərbi şəhərciklərdə su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə təmin olunmuş qərargahlar, əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğularla yanaşı, hərbi qulluqçuların yüksək səviyyədə xidməti-döyüş fəaliyyəti göstərməsi məqsədilə müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, camaşırxana və hamamxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektləri də nəzərdə tutulub.



Cəbhəboyu zonaya səfəri çərçivəsində general-polkovnik Zakir Həsənov inşaat işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri cəbhə bölgəsində yerləşən mobil səhra hospitalında olub



*Müasir dövrdə Azərbaycanda dövlət rəhbərliyinin xüsusi diqqət ayırdığı sahələrdən biri də məhz ordu quruculuğudur. Torpaqlarımızın bir hissəsinin işğalda qaldığı bir vaxtda hərbi gücümüzün artırılması zərurətdir. Bu məqsədlə dövlətimizin rəhbərliyi hərbi hissələrin müasir silah və texnikalarla təmin edilməsinə, hərbi qulluqçuların əşya-ərzaq təminatına ciddi diqqət yetirir.*

Son illər Silahlı Qüvvələrimizdə hərbi səhiyyənin də ən müasir tələblər səviyyəsində qurulmasına önəm verilir. Vətənimizin ərazi bütövlüyü və torpaqlarımızın toxunulmazlığı uğrunda hər cür fədakarlığa hazır olan döyüşçülərin sağlamlığının etibarlı təminatı məqsədilə nəinki böyük hərbi səhiyyə müəssisələri, həmçinin cəbhə bölgələrindəki səhra hospitalları da dünya tibb elminin son nailiyyətləri əsasında qurulur. Məlum aprel döyüşlərində ağır yaralılara vaxtında yüksək səviyyəli tibbi xidmətin göstərilməsi nəticəsində canlı itkilərimiz də xeyli az oldu. Təkcə bir faktı qeyd etməyə dəyər ki, yaralılarımız arasında qanaxma hadisəsinə görə heç bir itki qeydə alınmamışdı. Bu isə səhra hospitallarında müasir müayinə və müalicə şəraitinin mövcudluğundan xəbər verir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata görə, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, cəbhə bölgəsində olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni şəraitə uyğunlaşdırılmış mobil səhra hospitalında olublar. Müdafiə naziri ən müasir tibbi avadanlıqlarla tam təchiz edilən və müharibə şəraitində ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulan mobil səhra hospitalında yaradılan şəraitlə tanış olub, müvafiq tapşırıqlarını verib.

Göründüyü kimi, cəbhə xəttinə yaxın ərazidə yaradılmış mobil səhra hospitalı ən müasir tibbi avadanlıqlarla təchiz edilib. Bu da həmin bölgədə xidmət edən hərbi qulluqçulara müasir tibbi xidmətin göstərilməsi və onların sağlamlığının qorunması üçün etibarlı təminatdır.

# Müdafiə naziri hərbi qulluqçuların döyüş ruhunu və mənəvi-psixoloji hazırlıq səviyyəsini yüksək qiymətləndirib





*Bu günlər Azərbaycan xalqı mühüm tarixi hadisəni - Dövlət Müstəqilliyimizin 25-ci ildönümünü qeyd edir. Ölkəmiz azadlıq və suverenlik qazandığı qısa zaman ərzində böyük nailiyyətlərə imza atıb, dövlətçiliyini möhkəmləndirib və beynəlxalq aləmdə nüfuz qazanıb. Şübhəsiz ki, qazanılan uğurlardan danışanda böyük fəxrlə ordu quruculuğundan da söhbət açırıq.*

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu strategiyasının müasir dövrdə onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən inkişaf etdirilməsi nəticəsində doğma ordumuz Cənubi Qafqazın ən etibarlı hərbi qüvvəsi kimi dünya orduları arasında özünə yer tutub. Azərbaycan dövlətinin son illər həyata keçirdiyi hərbi islahatlar həm Silahlı Qüvvələrimizin silah arsenalının müasirləşməsinə, həm də şəxsi heyətin sosial rifahının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına səbəb olub.

Hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində önəmli rolu olan amillərdən biri də Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla nazirliyin rəhbər heyətinin ardıcıl olaraq cəbhə xəttinə səfər etməsi və səngərlərdə döyüş növbətçiliyi keçirən şəxsi heyətlə görüşməsidir. Belə tədbirlər xüsusən əsgərlərin yaddaşında xoş xatirəyə çevrilir. Müdafiə Nazirliyi rəhbərliyinin əsgərlə birgə nahar etməsi şəxsi heyətdə öz rəhbərinə böyük inam yaradır. Əsgər hiss edəndə ki, ordunun rəhbəri onun bütün qayğıları ilə dərindən maraqlanır, o zaman onlarda yüksək əhval-ruhiyyə yaranır. Göstərilən diqqət və qayğıdan ruhlanan şəxsi heyət qarşısına qoyulan vəzifələri də daha məsuliyyətlə yerinə yetirməyə çalışır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin yayımladığı məlumatda deyildiyi kimi, cəbhə bölgəsinə səfərini davam etdirən nazirliyin rəhbərliyi ön xətdə yerləşən başqa bir hərbi hissənin müxtəlif bölmələrində olub.

Səngərlərdə döyüş növbətçiliyini yoxlayan Müdafiə naziri eyni zamanda şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb. Bildirilib ki, ön xətdə yerləşən bölmələr içməli su, istiliklə, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub.

Ölkə başçısının Silahlı Qüvvələr qarşısında qoyduğu tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini ifadə edən Müdafiə naziri hərbi qulluqçuların döyüş ruhunu, mənəvi-psixoloji hazırlıq səviyyəsini yüksək qiymətləndirib.

General-polkovnik Zakir Həsənov bildirib ki, şəxsi heyət daim Vətənə sədaqətlə xidmət etməli və işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün Ali Baş Komandanın əmri ilə hər an döyüşə hazır olmalıdır.



**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Azərbaycanın Dövlət Müstəqilliyi - 25*

# Azərbaycan müstəqillik yolunda

*Hər bir xalqın tarixində ən əlamətdar hadisə onun müstəqillik qazanması və suveren dövlətçiliyə nail olmasıdır. Azərbaycan xalqı da qədim Şərqin tarixində müstəqil dövlətçilik ənənəsi ilə tanınan xalqlardan biridir.*



16 il öncə tarixə qovuşan iyirminci əsr ölkəmizin həyatında ən mühüm hadisələrlə - Azərbaycanın iki dəfə müstəqilliyə qovuşması və bu yolda şanlı mübarizəsi ilə yadda qaldı. 1918-20-ci illərdə müstəqillik qazanmış Azərbaycan cəmi 23 ay dövlətçiliyini qoruyub saxlaya bilsə də, qürurverici faktdır ki, xalqımız bu qısa zaman kəsiyində özünün dövlətçilik atributlarını yarada bilmişdi. Görkəmili dövlət və hərb xadimlərinin misilsiz xidmətləri sayəsində həmin dövrdə müstəqilliyimizin mövcudluğu üçün zəruri olan bütün addımlar atıldı, lakin mürəkkəb tarixi şərait - sosialist inqilabının qələbəsi nəticəsində yeni siyasi quruluşun yaranması keçmiş ittifaqa daxil olan bir çox xalqlar kimi, Azərbaycan xalqının da müstəqilliyinə son qoydu. Bu yerdə ümummilli liderimiz Heydər Əliyevin bir kəlamını xatırlayıram: "Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir".

Nəhayət, ötən əsrin sonlarına yaxın Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini bərpa edə bildi - 1991-ci il oktyabrın 18-də "Müstəqillik Aktı"nı qəbul etdi. Əlbəttə, bu tarixi proses heç də xalqımız üçün qurbansız, mübarizəsiz ötüşmədi. 1988-90-cı illərin təlatümlü dövrünü xatırlasaq, Azərbaycanın müstəqillik yolunda nə qədər ağır məhrumiyyətlərlə üzləşdiyinin şahidi olarıq. Bir tərəfdən keçmiş ittifaqı bərpa etmək və xalqımızın azadlığa qovuşmasını istəməyən qüvvələrin təxribatları, digər bir tərəfdən isə qonşu Ermənistanın güclü havadarlarına güvənərək ölkəmizə ərazi iddiası Azərbaycanı, sözün həqiqi mənasında, ağır sınaqlarla üz-üzə qoydu. İlk müstəqillik dövründə hakimiyyətin təsadüfi, heç bir dövlətçilik təcrübəsi olmayan adamların əlində olması isə belə vaxtda tarixi müstəqilliyimizin itirilmək qorxusunu ortaya qoyurdu.

Fəlsəfə elmində belə bir termin də işlənir ki, tarix şəxsiyyətlər yaradır. 1993-cü ildə Azərbaycan xalqının müdrik dövlət xadimi Heydər Əliyevi təkidlə siyasi hakimiyyətə qaytarması da bu fikrin həqiqət olduğuna parlaq sübutdur. Əslində, keçmiş postsovet dövrü adlanan bir zamanda da Heydər Əliyev respublikamıza rəhbərlik edərkən böyük gələcəyə hesablanmış mühüm islahatlara imza atmışdı. Şübhəsiz, bu islahatlar müstəqil dövlətçiliyimizin siyasi, iqtisadi və hərbi potensialının formalaşmasında əsas əhəmiyyət kəsb etdi. 1971-ci ildə Ulu Öndərimizin təşəbbüsü və qətiyyəti nəticəsində Bakıda Cəmşid Naxçıvanski adına ibtidai hərbi məktəbin yaradılması ilə, əslində, müasir Silahlı Qüvvələrimizin kadr bazası təşkil edilmişdi. Məhz həmin təhsil müəssisəsinin yetirmələri sonrakı tarixi dövrdə, yəni müstəqil dövlətimiz yarandıqdan sonra ordu quruculuğuna və torpaqlarımızın işğaldan qorunmasına dəyərli töhfələrini veriblər. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun həmin məktəbin kursantları ilə görüşündə dediyi kimi, bu sərkərdələr beşiyində yetişən zabitlərimiz Heydər Əliyev Məktəbinin yetirmələri olduqlarına görə qürur duyurlar.

1993-cü ildə müdrik siyasi xadim Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıtması ilə müstəqillik dövrümüzün tarixində tamamilə yeni bir dövr başlandı. Ölkənin bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da vacib tədbirlərin həyata keçirilməsi nəticəsində müstəqil dövlətçiliyimiz üçün etibarlı təminat yaradıldı. Qısa vaxtda formalaşan Silahlı Qüvvələrimizin qətiyyətli həmləsi ilə üzləşən Ermənistan atəşkəs haqqında razılığı imzaladı. Müvəqqəti sülhün əldə edilməsi gənc müstəqil dövlətimiz üçün olduqca zəruri addım idi, yaranmış fasilədən ustalıqla yararlanan Azərbaycan uzunmüddətli siyasi və iqtisadi sabitliyinə qovuşmağa, dünyanın mühüm iqtisadi layihələrində iştirak etməyə imkan qazandı. Müasir dövlətçiliyimizin siyasi və hüquqi bazası məhz Heydər Əliyevin siyasi hakimiyyəti dövründə təşəkkül tapdı.

Bu gün Azərbaycan xalqı öz müstəqilliyinin daimi və əbədi olması üçün Ümummilli Liderimizin layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin siyasi kursunu tam dəstəkləyir və onun rəhbərliyi altında möhtəşəm inkişaf mərhələsinə qədəm qoyduğunu dərindən başa düşür. Azərbaycanın çox qısa vaxtda bütün parametrləri ilə güclü, sivil və demokratik dövlət kimi özünü dünyaya təqdim etməsini nəinki ölkəmizin daxilində, həmçinin beynəlxalq aləmdə qəbul etməyən yoxdur. Bugünkü Azərbaycanı 10-15 il bundan əvvəlki Azərbaycandan sanki böyük bir tarixi dövr ayırır. Tam cəsarətlə deyə bilərəm ki, müasir dövrümüzdə biz müstəqilliyimizin ən mütərəqqi mərhələsini - intibah dövrünü yaşayırıq. Bu inkişafın əsas səbəbi isə müəllifi ümummilli liderimiz Heydər Əliyev olan strateji inkişaf strategiyasının hazırda Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

Son illər müstəqillik tariximizin böyük nailiyyətlərindən danışarkən Silahlı Qüvvələrimizin döyüş qüdrətini qeyd etməmək mümkün deyil. Ali Baş Komandanımızın rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı hərbi islahatlar - ordunun müasir silahtexnikalarla təminatı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması və s. regionda Azərbaycanın hərbi güc sahibi olmasına imkan yaradıb. Həm 2014-cü ilin avqustunda, həm də bu ilin aprelində cəbhə xəttində erməni hərbi bölmələrinin güclü təxribatlarının qarşısının alınmasında döyüşçülərimizin göstərdiyi hünər və şücaət bütün dünyaya hərbi qüdrətimizi nümayiş etdirdi. Əlbəttə, bu hərbi nailiyyətlərimizin arxasında Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu hərbi-iqtisadi-sosial islahatlar dayanır. Ordumuzun şəxsi heyəti tam məsuliyyəti ilə dərk edir ki, güvəndiyi əsas amil güclü Azərbaycan dövlətidir.

Azərbaycan Ordusunun əsgər və zabitləri qarşılarında dayanan mühüm vəzifəni - torpaqlarımızın işğaldan azad edilməsini yerinə yetirməyə tam hazır olaraq tarixi müstəqilliyimizin qorunub saxlanmasında öz üzərlərinə düşən məsuliyyəti dərindən başa düşürlər. Müstəqilliyimizin mühüm dayaqlarından biri olan doğma ordumuzun hərbi qüdrəti gücləndikcə, xalqımızın da gələcəyə olan inamı daha da möhkəmlənir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Ən mühüm tarixi nailiyyətimiz




*Oktyabrın 14-də Azərbaycan Hərb Tarixi Muzeyində xalqımızın taleyində əlamətdar hadisə olan dövlət müstəqilliyimizin 25 illiyi münasibəti ilə tədbir keçirildi.*



Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycanın Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə bildirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanını qazanıb. "Amma, təəssüflər olsun ki, birinci dəfə bu imkan daxili çəkişmələr və xarici müdaxilələr səbəbindən itirildi. Xalqımıza belə bir tarixi imkan 70 ildən sonra yenidən nəsib oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu."

Ə.Qənizadə qeyd etdi ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk dövrlərindən etibarən həmişə ölkəmizin dövlət müstəqilliyini bərpa edəcəyinə inanıb və bu istiqamətdə əməli fəaliyyət göstərib. "Ötən əsrin 70-ci illərində dahi şəxsiyyətin yaratdığı indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey olmasaydı, dövlət müstəqilliyimizin qarantı olan bugünkü güclü Silahlı Qüvvələrimiz haqqında danışmaq belə mümkün olmazdı. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi, dönməz etdi."

Muzeyin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Nuru Məmmədov da "Azərbaycan müstəqilliyi inkişaf yollarında" adlı çıxışında xalqımızın siyasi lideri Heydər Əliyevin müstəqil dövlətçiliyimizin qorunmasında misilsiz xidmətlərindən danışdı. O, müasir dövrdə dövlətçiliyimizin möhkəmləndirilməsində dahi rəhbərin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin rolunu da qeyd etdi.

Digər çıxış edənlər də bildirdilər ki, müstəqilliyimizin təməlində məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və bu siyasətin hazırkı dövrdə uğurla davam etdirilməsi dayanır.

Sonda qısametrajlı filim nümayiş olundu.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasının beynəlxalq əlaqələri genişlənməkdədir



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası Avropa ölkələrinin hərbi elm və təhsil müəssisələri ilə sıx əməkdaşlığını davam etdirir. Silahlı Qüvvələrin Hərbi Akademiyası və Polşa Respublikasının Varşava Hərbi Tədqiqatlar Universiteti "Beynəlxalq təhlükəsizlik və hərbi tədqiqatlar İSMS 2016" mövzusunda birgə beynəlxalq elmi konfrans keçiriblər.

Silahlı Qüvvələrin Hərbi Akademiyası konfransa telekörpü vasitəsilə qoşulub.

Varşava Hərbi Tədqiqatlar Universitetinin rəhbəri konfransı açaraq bu cür tədbirlərin əhəmiyyətindən danışıb.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev də öz növbəsində konfransın iştirakçılarına uğurlar arzulayıb və birgə əməkdaşlığın perspektivlərindən danışıb.

Konfransda Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru S.Sadıyevin "Silahlı Qüvvələrdə müxtəlifliklərin idarə olunması strategiyası" mövzusunda məruzəsi dinlənilib. Məruzədə Azərbaycan Silahlı Qüvvələrində multikultural dəyərlərin qorunması və müxtəlifliklərin idarə olunması strategiyasından bəhs olunub. Məruzəçi bu sahədə Azərbaycan modelinin özəlliklərini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Sonra Hərbi Akademiyanın Adyunktura və elm şöbəsinin rəisi polkovnik Elşən Həşimov "CİS texnologiyasından istifadə etməklə görünməyən obyektlərin aşkar edilməsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi ArcGis proqram təminatından istifadə etməklə real dağlıq ərazinin 3D modelinin qurulması və onun nəticələri barədə danışıb.

Konfransda hərb elminin digər aktual problemlərinə dair elmi məruzələr dinlənilib və fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Redaksiyamızın poçtundan*

# Hər birimizdə Qələbəyə inam güclüdür

*Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb yaratmışdır. Dağlıq Qarabağda bütün toponimlər xalqımızın mədəniyyətini, tarixini əks etdirir.*

Ermənilər Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün zaman-zaman gizli planlar qurmağa çalışmışlar. Ötən əsrin əvvəllərində və sonlarında işğalçılıq müharibəsi aparmış, öz niyyətlərinə çatmaqdan ötrü ən iyrənc üsullara əl atmışlar. Soydaşlarımıza qarşı saysız-hesabsız terror aktları törədilmiş, dinc insanlar, qocalar, qadın və uşaqlar qanlarına qəltan edilmişlər.

Sovet imperiyasının əlaltısı olan Ermənistan rəhbərliyi və dünyaya səpələnmiş erməni diasporu ötən əsrin 80-ci illərində yenidən Vətənimizin ərazi bütövlüyünü təhlükə altına aldılar. Əvvəlcə Dağlıq Qarabağı Azərbaycanın tərkibindən qoparmağa çalışdılar. Onların bu hiyləsi Azərbaycan xalqının kəskin müqavimətilə qarşılaşdı. Bu səbəbdən Ermənistan ölkəmizə elan edilməmiş müharibəyə başladı. Azərbaycanlılar öncə indiki Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından didərgin salındı. Sonra isə Dağlıq Qarabağ və ətrafındakı ərazilərdən azərbaycanlılar zorla, silah gücünə qovularaq məcburi köçkünlərə çevrildilər. Erməni silahlı dəstələri bu zaman soydaşlarımıza qarşı



qəddarcasına davranır, hər vasitə ilə onları məhv etməyə çalışırdılar. Malıbəylidə, Kərkicahanda, Xocalıda və digər şəhər-kəndlərimizdə insanlığa yaraşmayan, qan donduran qətliamlar, soyqırımlar törədirdilər.

Nəticədə həm Dağlıq Qarabağ, həm də ətraf yeddi rayonumuz qəsbkar Ermənistan tərəfindən zəbt edildi. Hətta ölkəmiz öz müstəqilliyini itirmək təhlükəsilə üz-üzə qaldı. Amma xalqımızın təkidi ilə hakimiyyətə gəlmiş ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi nəticəsində ölkəmiz dirçəlməyə, iqtisadiyyatını inkişaf etdirməyə başladı. Müstəqil Vətənimizin tərəqqisində xarici şirkətlərlə neft müqavilələrinin imzalanması, xarici investisiyaların cəlb edilməsi önəmli rol oynadı. İqtisadiyyat inkişaf etdikcə dövlətimiz ordu quruculuğuna böyük diqqət göstərməyə başladı. Bu da təbiidir, müstəqilliyimizi qorumaq və işğal edilmiş torpaqlarımızı düşməndən azad etmək üçün güclü ordunun mövcudluğu zəruridir. Ona görə Azərbaycan Prezidenti İlham Əliyev hərtərəfli təchiz və təmin edilmiş Silahlı Qüvvələrin yaradılmasını dövlətimiz üçün prioritet vəzifə elan edib. Doğrudan da, ötən illər ərzində ordumuz xeyli güclənib və Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadir olan etibarlı qüvvəyə çevrilib.

Bu gün Azərbaycanda elə bir ailə tapmaq olmaz ki, Qarabağ müharibəsi onun taleyində silinməz izlər qoymasın. Bu müharibədə kimi doğmalarını, yaxınlarını, kimi də ev-eşiyini itirdi. Bütövlükdə isə hamımız Vətənimizin gözəl bir parçasını itirdik. Mədəniyyətimizin beşiyi hesab edilən Şuşa, qədim abidələrlə zəngin Kəlbəcər, Laçın, Ağdam... düşmən tapdağı altında inləyir. Ancaq hər bir vətəndaşımızda əzəli torpaqlarımızın düşməndən azad edilməsinə inam hissi güclüdür. Bu inamı bizə qüdrətli Azərbaycan dövləti və güclü Silahlı Qüvvələrimiz verir. Aprel döyüşləri isə qəlbimizdə olan bu inamı daha da artırıb.

**Şəbnəm BEHBUDZADƏ**

# Hava hücumundan müdafiə hərbi hissələrində təlim-məşqləri keçirilir

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən hava hücumundan müdafiə hərbi hissələrində döyüşə hazırolma səviyyəsi yoxlanılır və tapşırıqların dəqiqləşdirilməsi həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, intensiv təlim-məşqlərdə hava hücumundan müdafiə birləşmələri və hərbi hissələri, o cümlədən müasir S-300 PMU zenit raket komplekslərinin heyətləri şərti düşmənin hava hədəflərini aşkar etmək, tanımaq, avtomatik izləməyə götürmək və şərti atəşlə məhv etmək kimi praktiki məşqləri icra edirlər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**14 oktyabr 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 15 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Qaraqaşlı, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Mövlud Çavuşoğlu: Türkiyədə iyul hadisələri zamanı bütün Azərbaycan xalqının dəstəyini hiss etdik

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında çıxış edib və Assambleya üzvlərinin suallarını cavablandırıb.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov terrorizmə qarşı apardığı qətiyyətli mübarizəyə görə Avropalı Mühafizəkarlar Qrupu adından Türkiyəyə təşəkkür edib.

Nazir Mövlud Çavuşoğlu isə deyib: "Türkiyədə bu ilin iyulunda baş verən hadisələr zamanı qardaş Azərbaycanın Prezidenti başda olmaqla, bütün xalqın dəstəyini hiss etdik. Türkiyədəki azərbaycanlı qardaşlarımız türklərlə birlikdə hər iki dövlətin bayraqlarını bərabər qaldırdılar. Çətin anlarda hər bir ölkə dostlarını yanında görmək istəyir. Əlbəttə, biz gözləmirik ki, tərəfdaşlarımız apardığımız siyasətlə tam şəkildə razı olsunlar. Ancaq istərdik ki, belə ağır vəziyyətdən çıxa bilməyimiz üçün daha konstruktiv təkliflər irəli sürsünlər və tövsiyələr versinlər. Ancaq biz gizli niyyət və ikili standartlardan istifadə edilməsinə qarşıyıq. Avropa Şurasının baş katibi, Nazirlər Komitəsi başda olmaqla dostlarımız olan bir çox parlamentarilər də bu baxımdan düzgün yol tutublar. Biz dialoq və müzakirələrin tərəfdarıyıq. Avropa Şurasının nümayəndə heyəti Türkiyəyə səfər etdikdə biz hər zaman onlara lazımi dəstəyi veririk. Bundan sonra da biz bu əməkdaşlığı davam etdirəcəyik".

AZƏRBAYCAN ORDUSU

# Şəhid zabitimizin xatirəsinə həsr olunan "Ruhumuzun qələbəsi naminə" kompozisiya



*Müdafiə Nazirliyi və Bərdə rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Bərdə rayon Mədəniyyət Mərkəzində "Xalqımıza qələbə sevinci yaşadanlar" silsiləsindən apreldə cəbhə xəttində ermənilərin törətdikləri təxribatın qarşısını alarkən şəhid olmuş Azərbaycan Ordusunun baş leytenantı Ziya Həsənovun xatirəsinin anım mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, rayon ictimaiyyətinin nümayəndələri, Ziya Həsənovun xidmət etdiyi hərbi hissənin komandanlığı, döyüşçü dostları Bərdə Şəhidlər xiyabanına gedərək şəhidin məzarını ziyarət ediblər.

Mədəniyyət Mərkəzində Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə Z.Həsənovun xatirəsinə həsr olunmuş "Ruhumuzun qələbəsi naminə" adlı kompozisiya təqdim edilib. Kompozisiyada Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı, Gəncə Qarnizonu Zabitlər Evinin kollektivi, eləcə də hərbi birliyin bədii özfəaliyyət kollektivinin üzvləri iştirak ediblər. Tədbirdə Ziya Həsənovun həyat və döyüş yoluna işıq salınıb, qəhrəmanlığı təbliğ olunub. Təqdim edilən vətənpərvərlik mahnıları və hərbi marşlar tamaşaçıları Qarabağ uğrunda mübarizəyə səsləyib. Şəhidin ölümündən sonra dünyaya gəlmiş qızı Yağmurun səhnəyə gətirilməsi ilə Ziyanın ruhunun da səhnəyə gələrək və "Qarabağ uğrunda yenidən savaş başlarsa, balaca qızım Yağmurumun və Azərbaycanımızın gələcəyi naminə mən də ruhumla döyüşəcəyəm" deməsi tamaşaçılarda kövrək duyğulu və qürur doğuran anlar yaşadıb.



Tədbirin sonunda Bərdə rayon İcra Hakimiyyəti başçısının müavini Fəqət Şadlinskaya çıxış edərək ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışıb, xalqımızın şəhidlərə yüksək ehtiram göstərdiyini və Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə hər an torpaqlarımızın azadlığı uğrunda döyüşə hazır olduğunu bildirib.

Tədbirdə iştirak edən Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Ziya Həsənovun müəllimi olmuş Şakir Əhmədov, şəhid zabitin xidmət etdiyi hərbi birləşmənin komandiri Eldəniz İmaməliyev, Tərtər rayonundan gəlmiş Qarabağ müharibəsi veteranları çıxış edərək şəhidlərimizə Allahdan rəhmət diləyib, onların qanlarının yerdə qalmayacağına, işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə əminliklərini bildiriblər.

Şəhidin atası Niyazi Həsənov göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə edib.

Şəhid Ziya Həsənovun ölümündən sonra layiq görüldüyü "Cəmşid Naxçıvanskinin yubiley medalı" onun ailəsinə təqdim olunub.

# "Ölüm var ki, ömür qədər dəyərli..."



Payızdı. Aprel döyüşlərində şəhid olmuş baş leytenant Ziya Həsənovun anım günüdü. Müdafiə Nazirliyi ilə Bərdə rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla "Xalqımıza qələbə sevinci yaşadanlar" silsiləsindən keçirilən tədbirin mahiyyəti əsgərlər üçündü, çağırışçılar üçündü, cəmiyyət üçündü: şəhidlik ölümsüzlükdü - əbədilikdi.

Rayon ictimaiyyətinin nümayəndələri, döyüş yoldaşları şəhidin məzarını ziyarət edir, qəbri üstünə ehtiram kimi tər çiçəklər düzürlər...

Aparıcılar (Abdulla Qurbani, əməkdar artist Səmayə Sadıqova) tədbir iştirakçılarını misra-misra, kəlmə-kəlmə tədbirin məfkurəvi cazibəsinə salmaqdadı.

Tədbir bitkin əsər təsirindədi - süjetli, kompozisiyalı, yüksək bədii təsirə (dəyərə) malik ədəbi mətn, yeni rejissura yanaşmaları...

Şəhidləri məmləkət boyu analar oğul, bacılar, qardaşlar qardaş bilirsə, var səsimizi Abdulla Qurbaninin kəlamında birləşdiririk: "Şəhidlərə ölüm yoxdu!..". Ölümsüz ömürdü şəhid ömrü - "Ölüm var ki, ömür qədər dəyərli (Səməd Vurğun). Ölüm Vətənə görədirsə, xalqa, dövlətə, dövlətçiliyə görədirsə, onu ömür qədər dəyərli bilməmək mümkünmü? Belə ömürlər mənim, sənin, bizim ömrümüzdə yaşadılar - mənəvi borcödəmə kimi, yaşayır - başərilik kimi...

Baş leytenant Ziya Həsənovun anım gününün işığına toplaşıb bərdəlilər. Bu işıq Bərdənin sərhədlərini aşacaq, şübhəsiz. Bu işıq şəhid ruhunun işığıdı.

Səhnəyə həyəcansız baxmaq mümkün deyil: heykəlləşmiş şəhid ayaq üstədi, sağındasolunda döyüşə hazır əsgərlər dayanıb. Elə bil döyüş ərəfəsidi və bu anlarda baş leytenant Ziya Həsənov döyüş əmri verəcək. Bu, olduqca incəliklə təqdim edilən rəmzdi: baş leytenant Vətəni, əsgərlər ordunu təmsil edir.

Gözlərini heykəl qəhrəmandan çəkməyən, çəkə bilməyən bir gəlinin göz yaşları közə dönüb yanaqlarını yandırır. Pıçıltısını aydınlığıyla eşidirəm: "Şəhidlər bütün bacıların qardaşıdı..."...

Səhnəyə daxil olan qara libaslı analar da, o anaların əllərindəki yanar şamlar da olduqca duyğusal rəmzdi: şəhidlərə, şəhidliyə ehtiram şamlarıdı bu şamlar, nə qədər dövlət var, dövlətçilik var, ehtiram şamları sönməyəcək. O analar ana obrazlarıdı; analar heykəlləşmiş şəhidin şərti məzarı önündə diz çökür. Müqəddəsliyin (ana) müqəddəslik (şəhidlik) önündə diz çökməsi şəhidliyin ilahilik məqamının təsdiqidi bəlkə? - rejissuranın toplaşanlara ünvanladığı bu bədii sual da "Xalqımıza qələbə sevinci yaşadanlar" əsərinin ideoloji-bədii uğurudu. Bu biçim ehtiramdan necə təsirlənməyəsən, necə qürurlanmayasan?.. "Bu ada qurban" mahnısı bu dərkin məntiqi davamı təsirindədi... Bu məqamlar düşüncələri bir mətləbə kökləyir: əsgər (hərbçi) Vətənin keşiyindədi, şəhid olarsa, ruhu əvəzləyir onu. "Ruhlar da sıramızdadı, əsgər qardaşım!" - tədbirin mahiyyətindən bu yaşarı mətləb də duyulur, hiss olunur...

Heykəlləşmiş şəhidin şərti məzarı qarşısında yanan məşəl də, "Şəhidlər əbədi məşələ dönür", "Dövlət bayrağı ancaq şəhidlərin önündə əyilir" kəlmələri də ürəkləri riqqətə gətirir. O bayrağın niyə əyildiyinin mahiyyətini dərk eləyənlər şəhidliyin müqəddəsliyinə bir daha inanır; rejissura tapıntısıdı, şübhəsiz.

Baş leytenant Ziya Həsənovun döyüş yoldaşlarının, hərbi səhra geyimində uşaqların səhnəyə gəlişi də düşündürücüdü: unudulmayacaqsan, Ziya. Sənin, sənin timsalında şəhidlərimizin amalını yaşadacaq bu uşaqlar. "Gəz, oğlum" mahnısı uca ruhların məktəblilərə bədii biçimli tövsiyəsidi elə bil. Bu məqamda da, bütövlükdə əsərdə də Dədə Qorqudluq hiss ediləndir, duyulandır; duyula-duyula düşündürən, düşündürə-düşündürə duyulan məqamlardı bu məqamlar.

Aparıcıların təqdimatıyla ruh qiyafəsində görünür şəhid baş leytenant. "Torpaqlarımız işğaldan azad edilən gün qayıdacam..." - deyir. Və Ziya Həsənovun ağbirçək nənəsi Maarifə səhnəyə qalxır, onu bağrına basır, qolları onun kürəyində çarpazlaşır, göz yaşları onun çiyinlərini isladır. Göz yaşları yanağında közə dönənlər də var, göz yaşları ürəyinə axanlar da. Aparıcıların müdaxiləsi olmasa, nənənin qolları taqəti tükənincə ruh qiyafəsində gələn nəvəsinin kürəyindən qopmazdı...

Heykəlləşmiş şəhidin ruhunun istəyi kimi "Qarabağ şikəstəsi"nin cazibəsinə düşürük. İnanırıq ki, yaxın vaxtlarda qələbəmizin təntənəsi kimi Cıdır düzündə "Xanın səsi havalanacaq"...

Kövrəkliyiylə ürəkləri həmişə məlum bir istəyə kökləyən "Gözlə məni" mahnısı da Ziyanın Yağmurunun anasına ünvanlanmış kimi görünür, hiss edilir. Mahnının sözləri də, melodiyası da heykəlləşmiş şəhidin, tədbirə ruh qiyafəsində gəlmiş şəhidin zamanında könül verib könül aldığıyla könül söhbətidi elə bil: "Gözlə məni, gələcəm..."...

Qələbənin səhərisi gün Lələtəpəyə yağmur düşüb...

Ziyanın şəhidliyindən sonra dünyaya gələn qızının adını Yağmur qoyublar; şəhidliyindən əvvəl yazdığı bir qeydə əsaslanıblar: "Qızımın adını Yağmur qoyacam..." Yağmuru səhnəyə uşaq arabasında gətirirlər. Hamı nəfəs dərmədən baxır ruh-Ziyaya. Böyük Füzulinin bir beyti düşür yadıma: "...daş dələr ahım oxu...". Ruh-Ziyanın səsində sevinc də var, fərəh də var, hiss edilməsi çətin olmayan qəhər də. Olduqca yüksək poetik dəyərə malik şeirlə süsləyir "üzünü görmədiyi", "qoxusunu dadmadığı", "nazını çəkmədiyi", "nəfəsini üz-gözünə hörmədiyi" balasının gəlişini. "Günəşim, ulduzum, haləm gəlib!" - deyir ruh-Ziya, "Qərənfilim, yasəmənim, laləm gəlib!" - deyir. "Yağmurum gəlib atasının anım gününə, ay ellər, balam gəlib!" - deyir...

Təqdimat da var əsərdə, səhnə-zal ünsiyyəti də; aparıcıların toxunduğu məqamlara ruhun (bu anlamda heykəlləşmiş şəhidin ruhunun) münasibəti də. Bu münasibətə iştirakçı münasibəti əsərin mükəmməlliyinin təsdiqi deyilmi? - heykəlləşmiş şəhidlə xalqa qələbə sevinci yaşadanlardan biriylə birgə qürurlanma, birgə kövrəlmə, Böyük Qələbəyə birgə köklənmə,...

"Xalqımıza qələbə sevinci yaşadanlar" tədbiri mükəmməl bir əsər olmaq etibarilə bir daha təsdiqləyir ki, ölüm var ki, ömür qədər dəyərlidi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Gənc zabitlərimiz*

# “Qələbə müjdəmi atam da gözləyir, oğlum da...”



"Qazax rayonunun Çaylı kəndində doğulmuşam, uşaqlığım ağır müharibə illərinə təsadüf edib. 6-7 yaşım olanda döyüşlərin qızğın vaxtıydı, atam da, əmilərim də, dayılarım da cəbhəyə getmişdilər. Kəndimizə hər dəfə şəhid tabutu gətiriləndə anamdan xəbərsiz məscidə qaçırdım ki, görəsən, atam deyil ki?! Bir dəfə Adil əmimin şəhid olduğunu eşitdim, o, Ağdam istiqamətində gedən döyüşlərdə bölük komandiriydi. Kəndimizin böyükdən-kiçiyə hamısı onun cənazəsini son mənzilə yola salırdı. Onda anam saçlarıma sığal çəkib demişdi ki, əmin Vətən uğrunda, xalq, millət yolunda şəhid olub..."

Yazımın qəhrəmanı ön xətdə xidmət edən gənc zabitlərimizdən biri - kapitan Tural Qocayevdir. Bir çox həmyaşıdları kimi onun da uşaqlıq illəri müharibə dövrünə təsadüf etdiyindən kövrək uşaq düşüncəsində müharibə kabusu dərin iz buraxıb. Ətrafında gözü yaşlı anaları, uşaqları görəndə bütün varlığıyla hiss edib ki, müharibə dəhşət, ölüm-itim deməkdir.

- Atam cəbhədən evimizə gələndə tez də qayıdardı, - deyir. - Hər dəfə də anama "özündən, uşaqlardan muğayat ol", - deyəndə bu kəlmələrin gizli bir mənasını düşünüb axtarardım. Deməli, atam da bir gün müharibədə həlak ola bilərdi. Uşaq yaddaşımda kök atan bu hisslər mənə dözümlü, cəsarətli olmağı aşıladı. Məktəbdə oxuyanda da müəllimlərimiz vətənpərvərlikdən çox danışar, Vətəni, yurdu qorumağın hər bir oğul üçün müqəddəs borc olduğunu bildirərdilər. Oxuduğum 2 saylı Çaylı kənd orta məktəbi ölkəmizin ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhid Elşən Cəfərovun adını daşıyır. Qardaşı ilə bir sinifdə oxumuşuq. Məktəbin dəhlizində şəhidin xatirə guşəsi yerləşir, onun qarşısından sakitcə ötüb keçmək olmur. Hər dəfə şəhidin nurlu gözləri ilə rastlaşanda yumruğumu sıxıb düşməndən qisas alacağım günü düşünmüşəm. Böyüdükcə başa düşdüm ki, erməni millətçilərinin fitvası ilə baş tutan davalarda minlərlə günahsız soydaşımız məhv edilib, nə qədər ailə gözüyaşlı qalıb.

Kapitan söhbətimizdə deyir ki, mülki ixtisas sahibi olmasına baxmayaraq, orduda xidmət etməyi, hərbi mundir geyinməyi daim düşünüb. Elə buna görə də Gəncə Dövlət Universitetinin tarix fakültəsini bitirib əsgəri xidmətə gələndə zabit olmaq istəyini komandanlığa bildirib. Sonra müvafiq kursu başa vurub və "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Bir müddət bu vəzifədə özünü bacarıqlı zabit kimi tanıdıb. Onun humanitar təhsilli olması və yüksək fərdi keyfiyyətləri nəzərə alınaraq şəxsi heyətlə iş üzrə bölmə komandirinin müavini kimi mühüm vəzifəyə irəli çəkilib. Gənc zabit öz xahişi ilə qısa vaxtdan sonra cəbhə xəttindəki bölmələrdən birinə təyin edilib.

Təcrübəli zabitə görə, gənclərin vətənpərvərlik tərbiyəsində əsas amillərdən biri onlara erkən yaşlarından milli-mənəvi dəyərlərimizin düzgün aşılanmasıdır. "18 yaşdan sonra ordu sıralarına çağırılan hər kəs təkcə tibbi-fiziki cəhətdən deyil, həm də mənəvi baxımdan hərbi xidmətə hazır olmalıdır. Məncə, əsgərin əsas silahı ürəyindəki Vətən sevgisidir. Müdafiə nazirimiz vurğulayıb ki, ən müasir silahı da idarə edən əsgərdir. Hərbi xidməti dövründə hər bir gənc vətəndaşımız özəl vərdişlərdən təcrid olunaraq yalnız Vətənin müdafiəsində dayanmağı düşünməlidir. Qəzetimizdə polkovnik Abdulla Qurbaninin təqdim etdiyi "Ana harayı" adlı müraciət-məktubu bizim bölmədə də ürək ağrısı ilə müzakirə olundu. Oğlunun mənasız ölümü zavallı qadını nə qədər təsirləndiribsə, bizi də o qədər kədərləndirib. Qoy həmin ziyalı anamız bu gün səngərdə xidmət edən əsgərləri özünə övlad bilib təsəlli tapsın. Əlbəttə, ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş bir insanı övlad səhvinə görə günahlandırmaq düzgün olmazdı. Amma gəlin düşünək ki, vaxtında cəmiyyətimiz bu cür hadisələrə düzgün münasibət aşılayarsa, belə xoşagəlməz hallara da birdəfəlik son qoyular".

- Aprel döyüşləri əsgərlərimizi mənə yenidən kəşf etdirdi, - deyir həmsöhbətim. - İnanın ki, bölməmizin hər bir əsgəri həmin döyüşlərin iştirakçısı olmağında israrlıydı. Hamı döyüşə atılmaq üçün müraciət edirdi. Bu, müasir gəncliyimizin vətənpərvərlik ruhunun təsdiqi, onun xalqa, dövlətə sevgisinin təzahürü idi.

Zabitə görə, Azərbaycan Ordusunun aprel zəfəri xalqımızın yeni qəhrəmanlıq səhifəsi olmaqla bərabər əsgərlərimizi də qələbəyə ruhlandıran bir örnəkdir. "Hərbi hissəmizin şəxsi heyəti bu qələbənin əldə olunması üçün böyük fədakarlıqlar göstərib. Şəhid olan döyüşçülərin hər biri əsgərlərimiz üçün layiqli nümunədir. Bir faktı xüsusi qeyd edim ki, apreldə xidmətini başa vuran əsgərlərimizin heç biri ordudan tərxis olunmaq, evlərinə qayıtmaq istəmirdi. Axı onlar da xalqımıza illərdən bəri gözlədikləri qələbə sevincini bəxş edən igidlərin arasında olmaq istəyirdilər".

Kapitan deyir ki, bu gün atam da, oğlum da məndən qələbə müjdəsini gözləyir. Çünki bu gün dövlətimizin rəhbərliyi və Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən önəmli islahatlar hərbi gücümüzü daha da artırıb. Artıq xalqımız orduya güvənir və Ali Baş Komandanımızın rəhbərliyi ilə baş tutacaq Böyük Qələbəni səbirsizliklə gözləyir. Şübhəsiz, həmin zəfərdə payı olan vətənpərvər zabitlərimizdən biri də kapitan Tural Qocayev olacaqdır!

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Rusiya Ukrayna ilə neft boru kəməri müqaviləsini ləğv edib



Rusiya Ukrayna ilə neft boru kəmərlərinin işlədilməsinə dair müqaviləni ləğv edib.

Hökumətin qərarına görə, Rusiya Ukrayna ilə təxminən 21 ildir davam edən neft boru kəmərlərinin işlədilməsinə dair əməkdaşlıq müqaviləsini ləğv edib.

Rusiya və Ukrayna öz ərazilərində olan iki boru kəmərinin "Transneft" adlı şirkət tərəfindən birgə işlədilməsinə dair müqaviləni 1995-ci il iyulun 26-da imzalamışdı.

"Transneft" fevralda Ukrayna torpaqlarında olan idarəçilik hüququnu İsveçrənin "International Trading Partners" şirkətinə satmışdı.

### “Hurun Report”: dünyada ən çox milyarder Çindədir



Dünyada ən çox milyarder Çindədir.

Bu barədə mərkəzi ofisi Şanxayda yerləşən biznes, iqtisadiyyat və araşdırma jurnalı "Hurun Report"un açıqladığı məlumatda deyilir. Bildirilir ki, Çində 594 milyarder iş adamı var. Siyahıda ikinci sırada isə 535 milyarder ilə ABŞ yer alıb.

Çin keçən il 596 milyarder ilə 537 milyarderə malik ABŞ-ı ilk dəfə geridə qoyaraq siyahıya başçılıq etmişdi.

### Tailandın Kralı vəfat edib



Tailandın Kralı Bhumibol Adulyadej 88 yaşında dünyasını dəyişib. Bu barədə Tailandın dövlət telekanalı məlumat yayıb.

70 il hakimiyyətdə olan kralın ölüm xəbəri Banqkok xəstəxanasının qarşısına toplanmış insanlar tərəfindən göz yaşları ilə qarşılanıb. Hökumət və parlament oktyabrın 13-ü axşam saatlarına fövqəladə iclas təyin edib.

Ölkənin baş naziri Prayut Çan-Oça televiziya ilə xalqa müraciət edərək həmyerlilərini ay ərzində bütün əyləncəli tədbirlərdən çəkinməyə çağırıb.

Həkimlərin nəzarətində olan monarxın səhhətinin pisləşməsi ilə bağlı məlumatı kral sarayı oktyabrın 9-da yaymışdı. Hemodializdən sonra həkimlər kralın qəfil düşən qan təzyiqini qaldırmaq üçün xüsusi preparatlardan istifadə etməli olublar. Həmçinin xəstəni ağ ciyərlərin süni ventilyasiyasını təmin edən cihaza qoşublar. Həmin vaxtdan etibarən kralın vəziyyəti qeyri-stabil xarakterizə olunurdu.

### Finlandiya dünyanın ən təhlükəsiz ölkəsidir



Dünyanın ən təhlükəsiz ölkələri reytinqində birincilik Finlandiyaya məxsusdur.

Dünya İqtisadi Forumunun tərtib etdiyi reytinqə 141 ölkə daxildir. Finlandiyadan sonra ikinci və üçüncü yerləri müvafiq olaraq Qətər və Birləşmiş Ərəb Əmirlikləri tutur. İlk onluğa, həmçinin İslandiya, Avstriya, Lüksemburq, Yeni Zelandiya, Sinqapur, Oman və Portuqaliya daxildir.

Ekspertlər ölkələrdə təhlükəsizlik şəraitini cinayətkarlığın, o cümlədən terrorçuluğun, xalqın hüquq mühafizə sistemləri əməkdaşlarına etimadının səviyyəsinə və qanun keşikçilərinin əhalini müdafiə etmək qabiliyyətinə əsasən qiymətləndiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi yeniliklər, ənənələr



“Kobra” helikopteri

ABŞ-da döyüş helikopterlərinin hazırlanmasına Koreya müharibəsindən sonra başlanılıb. Həmin dövrdə çoxməqsədli və nəqliyyat helikopterlərinin döyüşlər zamanı daha faydalı olduğunu nəzərə alaraq onların hazırlanması işini "Bell Helikopter Tekstron" firması öhdəsinə götürüb. İlk ideyalar özünü yüngül eksperimental Bell Model 207 Siu skaut helikopterinin uğurlu sınağında göstərdi. Yeni vintqanadlı Bell AN-1 "Kobra" (Bell AN-1 "Cobra") helikopterinin yaradılmasında çoxməqsədli "İpokez" maşınının sistem və aqreqatlarından istifadə edilib.

İlk təcrübəli "Kobra" 1965-ci illin əvvəllərində hazırlanıb və həmin ildə ilk uçuşu həyata keçirilib. Onun ilk modifikasiyalarında iki ədəd 7,62 mm-li, ehtiyat döyüş sursatı 4000 patrondan ibarət olan "Miçiqan" pulemyotu və 321 ədəd qumbara ilə birlikdə 40 mm kalibrli iki qumbaraatanlı XM28 turel qurğusundan istifadə edilib.

Qanadlarının altında səkkiz ədəd idarəolunan "Toy" raketi yerləşdirilib. "Kobra"lar Vyetnam, Laos və Kambocada gedən müharibələrdə birbaşa yerüstü qoşunlara dayaq durmaq, düşmənin zirehli texnikasını məhv etmək, kəşfiyyat aparmaq üçün istifadə edilib. İlk "Kobra" modelləri yenidən cihazlandırılıb. O AN-Q modifikasiyası zirehli texnikalara qarşı mübarizə aparmaq üçün nəzərdə tutulub. Bir maşının cihazlandırılması üçün bir milyon dollar xərclənib. 1973-cü ildə daha səkkiz ədəd helikopter modernləşdirilib. AN-1 helikopterinin çoxlu sayda modelləri mövcud olub.

Onların yaşarlığını yüksəltmək üçün Bell AN-1 "Kobra" maşınında ikinci mühərrikin quraşdırılması həyata keçirilib və dörd ədəd ikimühərrikli AN-IJ helikopterləri 1971-ci ildə Vyetnama göndərilib. Bu maşın bir çox münaqişəli müharibələrdə iştirak edib və özünü yaxşı doğruldub.

Bell AN-1 "Kobra" helikopterinin taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə çəkisi 2993 kiloqram, uzunluğu 13,6 metr, eni 13,41 metr, sürəti 281 km.saatdır, heyəti iki nəfərdən ibarətdir. Silahlanmasına 20 mm-li avtomat top, TOW, AİM-9 raketləri daxildir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Üzü dan yerinə...

(lirik poema)

*Aprel döyüşlərində sonralar Bayraqtəpə adlandırılacaq yüksəklik uğrunda şəhid olanların ruhuna.*



Uca ruhlar nə deyirdi
o yaz gecəsi,
Bir amalın, bir istəyin,
uğur anında?!
Göy üzünün göylüyünə
dirsəklənərək
Nə deyirdi bir istəyin
bəyaz gecəsi?!
Dar macalda
əsən yellər həyəcanın da
saçlarını birər-birər
daraqlayırdı.
Qətiyyətdən qələbəyə
aparan yolun
baxışını ayrı biçim
maraq sayırdı...

Əsgər balam, bayaqdan
dayanmışıq üz-üzə.
Söz sözün yedəkçisi,
Söykək olub söz sözə.

Vətəndi daşlı səngər,
Sağ da, sol da Vətəndi,
Səngərdən Qələbəyə
Gedən yol da Vətəndi.
Qoyma orda bir daşı
Yad tərpədə, Vətəndi.
O təpə də Vətəndi,
Bu təpə də Vətəndi...

Hər kəlməmiz Vətəndi,
Söz-söz vətənləşmişik,
Od-od vətənləşmişik,
Köz-köz vətənləşmişik.
Vətən - qibləgahımız,
Qələbə harayına
dönməlidi, dönəcək
açılan sabahımız.
Əsgər balam!
Yolunuzu
Gözlərinin yuxusunu
kirpiyinə yük eləyib
yağan yağış uğurlasın.
Ürək-ürək gümüldənən
anam-baxış,
nənəm-baxış uğurlasın.
Bir arzuya, bir istəyə,
bir niyyətə bağır basıb
dinən baxış uğurlasın.
Şəhidlərin
Anasının ürəyindən
üzülməyən məhəbbətə
dönən baxış uğurlasın.
Siz keçəsi cığırlara
düşən naxış uğurlasın.
Yaz axşamı yola-izə
baxan çiçək uğurlasın,
Dözümünü, təpərini
dişlərinin arasında
sıxan çiçək uğurlasın,
Ruhum çiçək bu uğuru
ləçək-ləçək,
göyçək-göyçək uğurlasın!
Uğurlasın!
Əlinizdən yapışıbdı
Amal - uğur, istək - uğur,
niyyət - uğur;
bu amalın, bu istəyin,
bu niyyətin qalibiyyət ucalığı,
Bir sədaqət, bir ehtiram,
bir məhəbbət ucalığı!

Əsgər balam, bu gecə
Sənin ayaq səsindən
gecənin köynəyinin
ilmələri sökülsün.
Tanrı uğurlayıbdı
Yaz günü bu axşamı.
Yollarına tökülsün
Göylərin ulduz şamı.
İşğalın, işğalçının
beli elə bükülsün,
heyi qalmasın, durub
sənə sarı boylana.
Yerişinlə yel əsdir,
Coşub titrəyən yeli
O tərəfə tələsdir.
Yara yetir yağıya,
Sən əsdirən yellərdən
yağının, yağılığın
yaraları hoylana!..

Düyün düşən yuxumu
yozanım, əsgər balam,
Cəsarəti, qətiyyəti,
heysiyyəti,
Vətən adlı bir məbədə
məhəbbəti
tarixin daş sinəsinə
yazanım, əsgər balam,
Sən qalib gələcəksən,
Səni vəsf eyləyəcək
ozanım, əsgər balam!

İrəli! Daş cığırın
sinəsiylə irəli!
Xətainin, Cavadın,
Ələğanın, Səmədin,...
gur səsiylə irəli!
Şəhid qardaşlarının
səngərlərdə qırılan
nəfəsiylə irəli!

Dərələrdə selə dön,
Təpələrdə yelə dön,
Kükrə indi, daş indi,
Döyüş, vuruş ər kimi,
Torpaqların hoyuna
yetir Səməndər kimi..
Yetir Qu qanadında
Qaraca Çoban kimi;
Yağılara nifrətin
sənin sapand daşındı.

Ayağınla yağının
silah tutan əlini
döyə-döyə irəli!
"Ya qələbə, ya ölüm!"
deyə-deyə irəli!
Yollarına göz dikib
mənim elim, irəli,
sənin elin, irəli!
Yağının gözlərini
ova-ova irəli!
Yadın yad nəfəsini
qova-qova irəli!
Son döyüşə irəli,
Ölməzliyə irəli!..

İllər ilə
Bu torpaqdan
perik düşüb azan səsi,
Çiçəklərin ləçəyinə
yük olubdu yad nəfəsi,
Çilik-çilik çiliklənib
çeşmələrin zümzüməsi.

İllər ilə yad atları
kişnəyibdi məmləkətin
bizsiz qalan düzlərində,
Doğma yurdun həsrətini
ocaq daşı bilənlərin,
Ağ yağışı göy üzünün
qəhər yaşı bilənlərin
ot göyərib izlərində.

Belə getsə,
Göyü yerə ələyəcək
boz həsrəti kirpiyində
közə dönən anaların,
Duaları dodağında
köz misallı
sözə dönən anaların
ağlar qalan təranəsi.
Yeri-göyü yandıracaq
dəli həsrət ürəyinə
ağrı olan nənələrin,
Ağrıları gecəsinə
sarğı olan nənələrin
bayatıya qabqardığı
dörd misralıq şikəstəsi:
...yurda sarı,
Ağrımı yurda sarı.
Ürəyim dərdli-dərdli
Boylanır yurda sarı...

Ölüm yeli əsdirin
yağının başı üstə.
Əsdirin ki, qalmasın
bir daşı daşı üstə.

Ərənliyi, ərliyi
min illərdən bu yana
tarixə görk olanım
ulu babalarındı,
Ərənlik timsalıtək
tarixləşən tarixin
yaddaşında qalanım
ulu babalarındı...

İrəli!
Döyüş əmri
başına börk olanım!
Əsgərim!
Əsgər balam!
Min illərin tarixini
qılıncıyla yazanların
qeyrətiylə vuruş, oğul!
Zaman-zaman yerə-göyə
heyrət olub Azərbaycan;
kirpik çalan yerin-göyün
heyrətiylə vuruş, oğul!

Zaman-zaman
bu torpağın
Qılınc tutan qoluna dön,
Yağılara, yağılığa
qan udduran qoluna dön!
Yusiflərin, Koroğluların,
Əlyarların, Vəzirlərin,
Mübarizlərin, ...
Vətən, torpaq sevgisiylə
vuruş, oğul!
Tarixi bir ədalətin
var səsiylə vuruş, oğul!
Ucalığın
yaraşığı bayraq olub,
Sən də Bayraq sevgisiylə
vuruş, oğul!
Səngər bilib qəlbi daşı
vuruş, oğul!
Daşa döndər qəlbi daşı,
vuruş, oğul!

Bir sevginin yağılığa
sualına dönüb vuruş!
Sağlığında hər kəlməsi
Vətən deyən,
torpaq deyən oğulların
xəyalına dönüb vuruş!
Bu cəsarət, bu qətiyyət,
bu məhəbbət
Niyə arxa olmasın ki,
ruha, niyə?!
Nə yaxşı ki, ürəyiniz
Köklənibdi "Ruhani"yə!..

Göydən yerə sallanacaq
göy üzünün göy qurşağı.
Təpələrin başı üstə
görünəcək göyqurşağı...

Əsgər balam!
Ovunmayan, kürlük edən,
Dərdi gözə günlük edən,
Çəmənliyi küllük edən
qəhər sənin qəhərindi.

Sellər kimi axıb gələn,
Şimşək kimi çaxıb gələn,
Köynəyindən çıxıb gələn
Səhər sənin səhərindi.

Gecə üzərlik üstədi,
Qələbə ərlik üstədi...
Barmağın tətik üstədi,
Zəfər sənin zəferindi!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Cüdo üzrə gənclər arasında Azərbaycan birinciliyinə yekun vurulub



Oktyabrın 13-də "Sərhədçi" İdman Olimpiya Kompleksində keçirilən cüdo üzrə 23 yaşadək gənclər arasında Azərbaycan birinciliyinə yekun vurulub.

Yarışda oğlanlar arasında dörd çəki dərəcəsində qaliblər müəyyənləşib. Murad Heydərli (66 kq), Aslan Mirzəyev (90 kq), Cəfər Əkbərli (100 kq) və Elxan Tamrirazov (+100 kq) Azərbaycan çempionu adını qazanıblar.

## Karate üzrə milli komandamız dünya çempionatına hazırlaşır



Karate üzrə Azərbaycan yığması dünya çempionatından əvvəl Qəbələdə təlim-məşqlərini davam etdirir.

Oktyabrın 25-dən 30-dək Avstriyanın Linz şəhərində karate üzrə 23-cü dünya çempionatı təşkil ediləcək. Bu səbəbdən idmançılarımız son hazırlıqlarını gələn həftə Azərbaycan Milli Karate Federasiyasının bazasında keçirəcəklər.

Son turnirlərin nəticələrinə əsasən, milli komandanın heyətində bəzi dəyişikliklər edilib. Fərdi və komanda yarışlarına qatılan heyətdə dəyişikliklər yaxın günlərdə açıqlanacaq.

## Futbol üzrə respublika birinciliyinin final mərhələsi başa çatıb



"Təhsil" Respublika İdman Mərkəzinin (RİM) futbol üzrə respublika birinciliyinin final mərhələsi keçirilib.

Yarışın keçirilməsinin əsas məqsədi nazirlik sistemində fəaliyyət göstərən idman məktəblərinin futbol bölmələrinin 13-14 yaşlı perspektivli futbolçularını aşkara çıxarmaq və mərkəzin yığma komandasını formalaşdırmaq olub.

Final mərhələsində zona yarışları üzrə birinci və ikinci yerləri tutmuş 12 komanda yarışıb. Birinci yeri "Təhsil" RİM-in Gəncə filialının komandası tutub. "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbinin komandası ikinci, "Təhsil" RİM-in Sumqayıt filialının komandası isə üçüncü yerə layiq görülüb.

Qaliblər kubok və diplomlarla mükafatlandırılıblar.

## İspaniyanın "AS" qəzeti futbol üzrə Azərbaycan millisinin uğurlu çıxışından yazıb



İspaniyanın məşhur idman nəşri olan "AS" qəzetində futbol üzrə Azərbaycan millisinin dünya çempionatının seçmə mərhələsində uğurlu çıxışına dair məqalə dərc edilib.

"Prosineçki Azərbaycan millisi ilə Rusiya xəyalındadır" sərlövhəli yazıda müəllif Aritz Qabilondo Azərbaycan milli komandasının dünya çempionatının seçmə mərhələsinin ilk üç turundakı uğurlu oyunundan yazıb.

Müəllif qeyd edib ki, ispaniyalı azarkeşlərə "Real"da və "Barselona"da çıxışları ilə yaxşı tanış olan Azərbaycan millisinin xorvatiyalı baş məşqçisi Robert Prosineçkinin fəaliyyətini uğurlu hesab etmək olar. Yazıda milli komandamızın seçmə mərhələdə üç oyundan 7 xal toplamasının Avropa üçün gözlənilməz olduğu diqqətə çatdırılıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 534
Nüsxə 4650